# YUXULARIMDA GÖZLƏYƏCƏM



*Pərixanım SOLTANQIZI (HÜSEYNOVA)*

Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin son kursunda oxuyurdum. O, bizə uzaq qohum idi. Ailələrimizin razılığı ilə, xüsusilə də anamın təkidli xahişi ilə bir gün onunla görüşdüm. İlk görüşdən ürəyimcən olmadı. Mən rədd cavabı verdim. Lakin o israrla növbəti dəfə məni kinoya dəvət etdi. Etiraz etdim. Vaxtım yoxdur, dərsim çoxdur deyib, bəhanə gətirdim.

O, - yaxşı deyil, bacımla gəlmişəm, gəl.

Etiraz edə bilmədim. Razılaşdım. Nədənsə kinoya getmədik. Bacısı, mən və o. Xeyli şəhərdə gəzişdik. Söhbətimiz çox maraqlı keçirdi. Onun məntiqli fikirləri, dolğun, düşüncəli baxışları, onda olan vətən sevgisi, məni ovsunlayır, qəlbimdə ona qarşı qəribə hislər yaranırdı. Hərdən baxışlarımız da toqquşurdu. Sonra biz yenə görüşdük. Hər görüşdə mən ona vurulurdum. Növbəti görüşlərimizin birində üzümə dərin baxışlarla baxaraq:

- Hə, nə deyirsən? Nə qədər sükut keçdi bilmirəm.... ürəyimin döyüntüsünü eşidir, yanaqlarımın od tutub yandığını duyurdum. Həm də utanırdım. İkimizdə uşaq deyildik. Sualın cavabı ikimizin də taleyini həll etməli idi. Mən yox! - Deyə bilməzdim. Aşiq olmuşdum. Başımı aşağı salıb razılıq əlaməti olaraq "hə" işarəsini verdim. Əllərimi tutdu. İlahi əllərim onun ovucunun içində necə titrəyirdi. Ürəyim az qalırdı yerindən çıxsın. Onun da həyəcan keçirdiyini hiss edirdim. Belə, nə qədər vaxt keçdi bilmirəm. Bir onun dilində titrəyən çox sağ ol! - sözünü eşitdim. Beləliklə görüşümüz bir neçə dəfə təkrar oldu. Artıq hər ikimiz aşiq idik. Düzünə qalsa ilk aşiq o idi. O, məni yaxın bir qohumun toyunda görmüş, maraqlanmış, evlənmək üçün məni seçdiyini ailəsinə bildirmişdir. Oğlan evi hər şeyi valideynlərimlə həll etmiş, qalmışdım bircə mən. Azərbaycan dili və ədəbiyyat müəllimi işləmək arzusunda idim. Həm də ermənilər, alçaqlar dinc oturmurdular. "Tarixi havalar"ı başlarında fırlanırdı. Elə bizim söhbətimiz də onların həyasızlığından, torpaq iddialarında olmalarından, vəhşiliklərindən, zaman-zaman xalqımızın başına açdıqları faciələrdən gedərdi. İlahi, bu mövzudan danışanda Mehmanın gözlərində şimşəklərin çaxdığını, yumruqlarının möhkəm sıxıldığını görərdim. Mən onun adını çəkməzdim, çəkməyə də nədənsə utanardım. O isə mənə Sevdam, Sevdalım deyərdi.

Mehman uca boylu, enli kürəkli, şux qamətli, iti yerişli idi. İri ala gözləri, qara, qalın çatma qaşları var idi. Qaşları yaya bənzəyirdi. Sanki ox yayından çıxacaqdı...

Ailələrimiz mənim cavabımı gözləyirdi. Elə bil fikrimi dəyişəcəyimdən qorxurdular. Tezliklə elçilər gəldi, şirinçay içildi. Həmin gün Mehmanın da, mənim də uçmağa bir qanadımız çatmırdı. Tezliklə nişanımız oldu. Toy söhbətləri aparılır, hazırlıq işləri görülürdü. Mehman hər həftənin 5-ci günü gəlir, bazar günü gedirdi. Bakıda qohumları olurdu. Gələndə onlarda qalırdı. Bəzən də 6-cı gün tezdən gələr, axşam qatarı ilə rayona, ya da Gəncəyə qayıdırdı. Utanıram, qohumgildə qalmaq istəmirəm, deyərdi. Görüşəndə necə sevinirdiksə, ayrılanda o qədər də qəhərlənərdik. Onu bilmirəm, mən hər dəfə ayrılanda ağlayardım. Amma bunu bildirməzdim. İçimdə onu itirməkdən qorxardım... Sanki bu məni gözləyirdi. Mehman hərbi xidmətdən gəlmişdi. İnstituta da hərbi xidmətdən sonra qəbul olmuşdu. Birinci il 1 balı çatmamış, müsabiqədən keçə bilməmişdi. O vaxt tarix fakültəsinə müsabiqə balı çox yüksək olduğundan qəbul olmaq çətin idi. (O Gəncə Pedaqoji İnstitutun Tarix fakültəsində oxuyurdu).

Nə isə toyumuz yaxınlaşırdı. 1993-cü ilin mayın 20-si ad günüm idi. Mehman mənimlə görüşə hədiyyələrlə gəlmişdi. Onun gəlişi elə mənə hədiyyə idi. May ayı olsa da, həmişəki kimi hava soyuq, küləkli idi. İkimizdə plaşda idik. Nədənsə Mehman kədərli idi. Üzümə baxır, bəzən də baxışlarını məndən gizlədirdi. Dil-dil ötən Mehman hərdən sükuta dalırdı. Mən də heç nə soruşmurdum. Onun dərdinin Qarabağ olduğunu bilirdim.

Tez-tez deyirdi:

- Yox, mən institutu qurtarmağımı gözləməyəcəm, könüllü gedəcəm! Qarabağa, savaşa! Sonra da gəlib təhsilimə davam edərəm. Az qalırdı desin ki, toyu da saxlayaq... Mənsə susurdum. Ertəsi gün Mehman qayıtmalı idi. Deyirdi rayona, sonra da Gəncəyə gedəcəm. Mənsə düşünürdüm ki, getsin, toyumuz o, gələndən sonra olar. Digər tərəfdən də iraq olsun, başına bir iş gəlsə, necə dözərəm! Bunu fikirləşəndə az qala ağlım başımdan çıxırdı. Nəhayət Mehman xudahafizləşəndə ürəyindəkiləri açdı: - Sevdam, toyumuzu sonra edərik. İndi ölkəmizdə müharibə gedir. Vətənimiz dardadır. Alçaq erməniləri qovaq, yerlərində otuzduraq. Belə də mən dözə bilmirəm!

- Bəs, institut?

- O, ikinci məsələdir. Bu payız gələrəm. Toyumuzu da edərik.

- Olsun - dedim.

İmtahanlar yaxınlaşdığına görə mən onu yola salmağa gedə bilmədim. Bu bizim axırıncı görüşümüz oldu. Məktublar bizi görüşdürürdü. Hər son sözü bu olurdu. Sevdam, özündən müğayat ol! Tezliklə gələcəm, özü də necə? Qələbə ilə! Gələndə sənə bu yerlərin torpağından gətirəcəm. Əslində biz ikimiz də Qarabağlı idik.

Günlər ötdükcə Qarabağdan gələn itkilərin, Azərbaycanımın bayrağı ilə bəzədilmiş şəhid tabutlarının sayı günbəgün artırdı. Bu sırada Mehmanın adı çəkilmədikcə sevinərdim. Sonra da özüm-özümü qınayardım. O şəhidlərin yol gözləyən sənin kimi sevgilisi yoxdurmu?! Nə edim özümlə bacarmırdım. Mehmanın adı çəkilmədikcə ürəyimdə bir ümid qığılcımı yanırdı. Əlaqədar qurumlar vasitəsilə onu axtarırdım. Nə gördüm deyən olurdu, nə ölüsündən, nə də əsir düşməsindən xəbər verən! Sevinirdim. Yox, o gələcək! Toyumuzu edəcəyik. Axı biz bir-birimizə söz vermişik! Nəhayət, qorxduğum başıma gəldi. Bir gün xəbər gəldi ki, Kəlbəcər döyüşlərində 4 nəfər itkin düşüb. Onun biri də Mehman Musayevdir.

Universiteti bitirmişdim. Artıq evimizdə idim. Qarabağ hadisələrini izləyirdim. Bir xəbəri ötürməzdim. Bəlkə, Mehmanı göstərərlər. Mən görmərəm. Anamgillə onlara getdim. Ailəsi mənim üzümə, mən də onların üzünə baxa bilmirdim. Dəhşət idi! Sözlə deyilə bilməyəcək dəhşət! Mehmanın atası ağlamırdı. Deyirdi ki, oğlum ölübmü ki, ağlayım. Niyə ağlayım. O gələcək! Elə deyilmi, Sevdası? Nə qədər utansam da gələcək, gələcək, ölməyib - deyirdim. Səsim ona çatırdımı bilmirəm. Qaynatam başımı sinəsinə basıb saçlarımı tumarlayırdı. Sanki, məndən təsəlli alırdı. O, öz evlərində Mehmana yas da vermədi. Onun yas çadırı xalasının həyətində quruldu. Beləcə qaynatamla mən Mehmanın yolunu gözləyə-gözləyə illəri ötürdük. İkinci Qarabağ savaşı başladı və qələbə ilə bitdi. Kəlbəcər də alındı. Yenə də İtkin düşənlərin sorağı, Azərbaycan bayrağı ilə bəzədilmiş tabutlarda şəhidlər gəlirdi. Kəndlər, şəhərlər qan ağlayır, analar, gəlinlər, mənim kimi sevgililər qanlı göz yaşları tökürdülər. Mən isə hər dəqiqə, hər an gözləyirdim. Gələcək, gələcək... Lakin Mehmandan hələ də xəbər yox idi...



Mehmanın ata-anası oğul dərdinə dözmədi. Mənsə Mehmanı gözləyirdim. Mənim bacımın ailəsi ermənilər tərəfindən öldürüldü, atam, anam öldü. Bu faciələri özəl günlərimdə yaşadım. Ölüm ayağında olan atam son nəfəsində

- Tək qalma qızım, Mehman gəlməyəcək, ailə qur - desə də mən gələcək! - dedim. Tək Mehmanın atası demədi!- Gözləmə qızım, Mehman gəlməyəcək! Anam yalvardı, yaxınlarım, qohumlarım gözləməyin mənası yoxdur. Tək qalma, təklik yaxşı deyil, dedilər. Kimi qınadı. Kimi afərin dedi. Amma bu sözlərin hər biri mənim üçün təsirsiz idi. Mən Mehmanı gözləyirdim. Elə bilirdim qapı açılacaq, Mehman içəri girəcək, qollarnı açacaq Sevdam, gəlmişəm deyəcək. Məni qucaqlayıb, toyumuzdan danışacaq.

Ayrılanda Mehman məndən Konstantin Simonovun "Gözlə məni" şeirini oxuduğumu soruşmuşdu. Mən də həmin şeirdən bu misraları həm rusca, həm də azərbaycanca tərcüməsini söyləmişdim:

Gözlə, uzaqlardan  
Məktubum kəsiləndə.  
Gözlə, gözləməkdən usananda,  
Gözləyənlərlə birlikdə gözlə.

Gözlə məni, qayıdacam,  
Yaxşılıq arzulama  
Gözləmək mənasızdır. Unut,  
Deyənlərə amansız ol.

Bu şeiri nədənsə çox sevirdim. Dilimin əzbəri idi. Beləcə 32 il keçdi. 32 ildən sonra Mehman gözlərimi yolda qoymadı. Gəldi! Amma şəhid kimi, şəhid tabutunda gəldi! Qovuşduq. O, mənə: - "Sevdam, görürsən gəldim, söz vermişdim axı" - dedi. - "Mən də sənə söz vermişdim sevgilim, gözlədim. Gözləməkdə də davam edəcəm. Yuxularıma gəl, Mehmanım", - dedim.

Yenə də Mehmanımı gözləyirəm. Bu dəfə yuxularımda...

**P.S.** ***Bu sevgi hekayəti şəhid nişanlısının, Mehman Musayevin yolunu gözləyən Sevda müəllimə ithaf olunur.***

***2025***